# TURK ƏLYAZMALARI KATALOQU

## I CİLD

## FOLKLOR ABİDƏLƏRİ VƏ MÜƏLLİFSİZ ƏLYAZMALAR

BAKI – 2007

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU

# TURK ƏLYAZMALARI KATALOQU

## I CİLD

## FOLKLOR ABİDƏLƏRİ VƏ MÜƏLLİFSİZ ƏLYAZMALAR

BAKI – ELM – 2007



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 22 noyabr 2006-cı il tarixli 11 №-li iclasının qərarı ilə nəşr olunur.**

**Təsvir və tərtib edənlər:**

**Şamil CƏMŞİDOV,**
**filologiya elmləri doktoru,**
**Əməkdar elm xadimi**

**Əli MƏMMƏDBAĞIROĞLU,**
**filologiya elmləri namizədi**

**Redaktoru:**

**Məmməd ADİLOV,**
**filologiya elmləri doktoru**

**Kompüter icraçıları:**

**Nuranə SALMANOVA,**

**Hüsniyyə QULİYEVA**

**Korrektoru:**

**Suad ƏHMƏDOV**

**Türk əlyazmaları kataloqu. I cild. Folklor abidələri və müəllifsiz əlyazmalar. Bakı: Elm, 2007, 218 s.**

***Türk əlyazmaları kataloqunun I cildi Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən türkdilli folklor abidələrinin və şifahi xalq ədəbiyyatının təsiri altında, eləcə də dini-mifoloji təfəkkürün məhsulu kimi qələmə alınmış müəllifi məlum olmayan əlyazmaların elmi-paleoqrafik təsvirini əhatə edir.***



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ÖN SÖZ

Azərbaycan xalqının zəngin mənəvi sərvətinin tərkib hissəsi olan folklor ədəbiyyatı bu günümüzə həm şifahi, həm də yazılı şəkildə gəlib çatmışdır. Ta qədimlərdən başlayaraq, yazıya daha çox dini, elmi məzmunlu əsərlərlə bərabər, bədii fikir və düşüncə sahiblərinin yaradıcılığını əks etdirən materiallar köçürülmüşdür. Folklor əsərlərinin bütünlüklə yazıya alınmasına isə o qədər də əhəmiyyət verilməmiş, bəlkə də buna heç o qədər də ehtiyac duyulmamışdır. Çünki dini və elmi əsərlərdən fərqli olaraq, folklor yaradıcılığı xalqın canlı danışıq tərzində, sadə el dilində formalaşıb, yaddaşlara köçdüyündən, dildən-dilə, nəsildən-nəsilə ötürülmüş, uzun bir tarixi yol keçərək şifahi formada çağdaş dövrümüzə çatmışdır.

Xalq ədəbiyyatına aid əsərlər ayrıca kitablara çox zaman köçürülməsə də, onlardan nümunələr – atalar sözü, bayatı, qoşma, bədii ifadə, hikmətli, nəsihətamiz sözlər, zərbi-məsəllər, aşıq yaradıcılığından parçalar, deyişmə, rəvayət, tapmaca, qıfılbənd və s. ya katiblər, ya da əlyazmanın oxucuları tərəfindən əlyazma kitablarının müxtəlif vərəqlərində, boş qalmış səhifələrdə, vərəqlərin kənarında qələmə alınmışdır. Ancaq bütün bu qeyd olunanlara baxmayaraq, tarixin müxtəlif dövrlərində mədrəsələrdə təhsil alan tələbələr, eləcə də yazılı abidələri müstəqil şəkildə köçürməklə məşğul olan katiblər yeri gəldikcə öz şəxsi maraqlarından irəli gələrək nə zamansa eşitdiyi, yaxud kimlərinsə sifarişi ilə aşıqların, sinədəftər el ağsaqqallarının, ağbirçək nənələrimizin dilindən şifahi xalq ədəbiyyatı nümunələrini köçürmüşlər.

Bu gün Şərq yazılı abidələrinin toplandığı ən zəngin əlyazma mərkəzlərindən biri olan Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu xəzinəsində mühafizə olunaraq saxlanılan Yaxın və Orta Şərq xalqları mədəniyyətinin görkəmli nümayəndələrinə aid minlərlə nadir yazılı abidələrlə yanaşı, xalqımızın əxlaqi-etik görüşlərini, məişətini, mifik düşüncə tərzini, vətənə məhəbbət və qəhrəmanlıq səhifələrini özündə canlandıran yüzlərlə yazılı folklor materiallları da saxlanılır. Xəzinədəki yazılı folklor abidələri yalnız ayrıca şifrlə saxlanan materiallardan ibarət olmayıb, eyni zamanda institutda şəxsi fondları mühafizə olunan görkəmli ədiblərimizə məxsus arxiv materialları arasında da özlərinin topladığı, və yaxud da köçürərək kimlərinsə onlara təhvil verdiyi çoxlu el ədəbiyyatından seçmələrə rast gəlmək mümkündür.

Nəşrə hazırladığımız kataloqa institutun xəzinəsində ayrı-ayrı şifrlərlə saxlanan folklor materiallarının və şifahi xalq ədəbiyyatının təsiri altında yazılmış müəllifi məlum olmayan əlyazmaların elmi-paleoqrafik təsviri daxil edilmişdir. Əlyazmaların təsvirində onların başlıca paleoqrafik xüsusiyyətləri – həcmi, ölçüsü, kağızı, xətti, sətir sayı, katibi, köçürülmə tarixi, həmçinin abidənin məzmunu haqqında qısa məlumat verilmişdir.

Kataloqda təsviri verilmiş 362 yazılı folklor abidələri və müəllifsiz əsərlər müxtəlif janrlarda olub, aşağıdakı ardıcıllıqla sıralanmışdır: dastanlar, hekayətlər, nağıllar, kiçik həcmli folklor materialları (bayatılar, ata-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

lar sözləri, tapmacalar, lətifələr) və s. Bu əsərlərin köçürülmə tarixləri əsasən XVII, XVIII, XIX və XX əsrin əvvəllərini əhatə edir.

Buradakı yazılı dastan abidələri bütünlüklə xalqımızın folklor yaradıcılığının məhsulu olsa da, onları mövzu etibarı ilə iki yerə bölmək olar: milli mənşəli və milliləşdirilmiş dastanlar. Milli mənşəliyə «Koroğlu», «Hekayəti-Kərəm», "Şəhriyar və Sənubər», «Qəşəm xan və Gülüstan xanım» kimi dastanlar aiddir.

Qəhrəmanlıq dastanlarımızdan biri «Koroğlu» adı ilə xəzinədə 3 əlyazma saxlanılır. D-674 şifrli nüsxə 16 vərəqdən ibarət olub, 1911-ci ilə aid bank blanklarının arxa tərəfinə köçürülmüşdür. Bu əlyazmada Koroğlu haqqında xalq arasında gəzib-dolaşan zərbi-məsəllər, müdrik ifadələr və Koroğlunun atasının gözünün çıxarılması ilə bağlı rəvayət vardır. İkinci əlyazma (D-381) 53 vərəqdən ibarət olub, «Koroğlu» dastanının Osmanlı variantıdır. Üçüncüsü isə (B-206) «Koroğlu»nun özbəkcə (cığatayca) nüsxəsidir ki, bunu Rusiya EA Sankt-Peterburq Şərqşünaslıq İnstitutunda saxlanan nüsxədən 1936-cı ilin sonu, 1937-ci ilin əvvəllərində Mirzə Xəlil Yüzbaşıyev Qarabaği köçürmüşdür.

Dastan abidələrinin arasında müxtəlif katiblərin dəst-xəttilə ayrı-ayrı vaxtlarda təkrar köçürülmüş nüsxələri ilə bərabər, nadir hesab olunanları da var. «Hekayəti-Kərəm» xalq dastanı «Əsli və Kərəm»in ilk dəfə təsadüf olunun nüsxəsidir. Dastanın bu nüsxəsi 1850-ci ildə çap olunmuş İstanbul variantına uyğun qəlsə də bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Harun ər-Rəşid adına burada istinad edilməsi, bir sıra söz və ifadələrin yazılış tərzindəki fərqlər bu əlyazmanın ilk çap nüsxəsindən ən azı yüz il əvvəl yazılmış bir nüsxədən köçürülmüş olduğunu deməyə imkan verir. Abidə Hüseyn əfəndi Qayıbovun bircildlik ədəbi toplusunun 345-382-ci vərəqlərinə 1867-ci ilin iyun ayında köçürülmüşdür.

Yeganə nüsxədən ibarət olan yazılı folklor abidələrindən biri də «Qəşəm xan və Gülüstan xanım» (A-603) dastanıdır. Bu əlyazma materialını da müəllifli folklor əsərlərindən biri hesab etmək olar. Əlyazmanın 106 b səhifsində Yelizavetapol komissarı İsmayıl xan Ziyadxanovun bu kitabı oxuyub dastanda nəql olunun hadisələrdən xəbər tutması üçün müəllifin xahişi qeyd olunmuşdur. Dastan qəhrəmanı Qəşəm xan özü də tarixi şəxsiyyət olmaqla, Gəncədə uzun müddət hakimiyyətdə olmuş Ziyadxanlılar nəslinin son nümayələrindəndir. Çox guman ki, İsmayıl xan Ziyadxanovla dastanın baş qəhrəmanı və yaxud onun müəllifi arasında qohumluq əlaqəsi olmuşdur. Qəşəm xan başına gələn hadisələri tarixi hadisələr fonunda, dastançılıq ənənəsinin müşayiəti ilə qələmə almışdır. Ola da bilsin ki, onun söylədiklərini kimsə köçürmüşdür. Əlyazma kitabının sonunda katib kolofonu olmadığından dastan mətninin kim tərəfindən köçürülməsi haqqında qəti fikir söyləmək mümkün deyil.

Dastanda Qəşəm xanla sevgilisi Gülüstan xanım arasında olan məhəbbət, eyni zamanda qəhrəmanın sevgisi yolunda çəkdiyi əzab-əziyyət və XIX əsrin ilk illərindən başlayaraq XX yüzilin əvvəllərinədək çarizmin yerlərdə törətdiyi qanunsuzluqlara, haqq-ədalətin pozulmasına insanların etirazı təsvir olunmuşdur.

Dastanların ikinci qisminə mövzusu Şərq xalqlarından götürülərək, folklor ədəbiyyatımızın bədii dil və üslub maneralarına müvafiq tərzdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

formalaşmış «Seyfəlmülük», «Qəhrəmannamə», «Bəxtiyarnamə», «Hatəmi-Tayi», «Leyli və Məcnun», «Mehrü Mah», islam dininin təbliği ilə bağlı olan dini məzmunlu «Xavərnamə» kimi milliləşdirilmiş dastanlar aiddir. Əlyazmalar İnstitutu xəzinəsində bu yazılı dastan abidələrindən «Seyfəlmüluk»un müxtəlif həcmdə olan on nüsxəsi saxlanılır. Dastanda Misir şahzadəsi Seyfəlmülük ilə İrəm padşahı Şahbal pərinin qızı Bədiülcamalın məhəbbət macərası təsvir olunmuşdur. Mövzu ərəb həyatından götürülsə də, dastan yaradıcısı tərəfindən bəzi hadisələrin cərəyan etmə məkanı dəyişdirilərək, Qafqazın bir sıra coğrafi mühiti, eləcə də Azərbaycanla əlaqələndirilmişdir.

B-4901 şifrlə saxlanılan milliləşdirilmiş dastan abidəsi «Bəxtiyarnamə» də xəzinənin nadir əlyazmalarındandır. Şərq xalqları ədəbiyyatında geniş arealda yayılmış «Bəxtiyarnamə» mövzusunda həm şifahi xalq ədəbiyyatında, həm də zaman-zaman yazılı ədəbiyyatda bir çox əsərlər meydana gəlmişdir. İlk dəfə bu mövzuda pəhləvi dilində yaranmış dastanı fars dilinə Şəmsəddin Məhəmməd adlı bir şəxs tərcümə etmişdir. Dastanın süjeti əsasında isə XV əsrdə yaşamış Pənahi təxəllüslü şair «Bəxtiyarnamə» poemasını yazaraq, Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqiyə ithaf etmişdir. XVI əsr Azərbaycan şairi Fədai də bu ənənəvi mövzuya müraciət edərək «Bəxtiyarnamə» məsnəvisini yazmışdır.

Kökü qədim dövrlərə gedib çıxan mövzunun xalq arasında formalaşan, köçürüldüyü dövrün canlı danışıq xüsusiyyətlərini özündə əks etdirən bu dastanın ana dilimizdə mövcud bir variantı da bizə gəlib çatmışdır. Əlyazmalar İnstitutu xəzinəsində «Bəxtiyarnamə» yazılı dastan abidəsinin iki nüsxəsi saxlanılır. Bunlardan birincisi fars dilində (XVII), ikincisi isə 1876-cı ildə katib Nəsib ibn Əli tərəfindən dastanın Azərbaycan-türk dilində yazıya köçürülmüş yeganə nüsxəsidir.

«Bəxtiyarnamə» köçürülmüş əlyazma kitabındakı (B-4901) ikinci dastan «Qəhrəmannamə»dir. Xəzinədə bu dastanın beş nüsxəsi saxlanılır. Abidə qədim Azərbaycan və İran-Turan əfsanələri əsasında yaranmış tarixi-mifoloji qəhrəmanlıq dastanıdır. Dastanın B-1506 şifrli nüsxəsi digərlərinə nisbətən tarix etibarı ilə daha qədim olub, 1107/1695-ci ildə katib Molla Kəlbi Ələddin İrəvani tərəfindən filiqranlı Avropa kağızına köçürülmüşdür.

Türk əlyazmaları kataloqunun I cildinə daxil olan əlyazmaların sayca böyük hissəsi dini-əfsanəvi məzmunlu xalq hekayətləridir. Həcm etibarı ilə kiçik olan bu hekayətlər geniş şəkildə xalq arasında məşhur olmuş, didaktik məna kəsb edərək, insanları səbrli, təmkinli olmağa çağırmış və həmişə müsbət əxlaqi keyfiyyətlər aşılamışdır. Müxtəlif sayda olan «İbrahimnamə» (17 nüsxə), «İsmayılnamə» (22 nüsxə), «Bayquşnamə» (12 nüsxə), «Dəlinamə» (5 nüsxə), «Keyiknamə» (6 nüsxə), «Kəllənamə» (23 nüsxə), «Hekayəti-Məhəmməd Hənifə» (23 nüsxə), «Düzd və Qazı» (12 nüsxə) və s. hekayətlər dini məzmunlu olsa da, hər biri xalq arasında yaranmış əfsanə və rəvayətlərlə müşayiət olunmaqla insanların əxlaqi, dünyəvi baxışlarının formalaşmasına daim xidmət etmişdir.

Buradakı folklora aid əlyazmaların bir hissəsi də nağıllardır. Nağıllardan 37-si B-4830 şifrli əlyazmaya köçürülmüşdür. Bu əlyazma iki ümumi dəftərdən ibarətdir. Nağılların köçürülmə tarixi göstərilməsə də, mət-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nin sonu latın əlifbası ilə yazıldığından onu XX yüzilin 20-30-cu illərinə aid etmək olar. Qalan 5 nağıl isə B-7517 şifrli əlyazmaya köçürülmüşdür.

Folklor əsərlərinin köçürüldüyü əlyazma kitablarının çoxu paleoqrafiyasına görə adi olsa ad, bəziləri bədii tərtibat baxımından xüsusilə diqqəti cəlb edir. Belə əsərlərdən «Kəlilə və Dimnə» dastanı köçürülmüş M-145, M-149 şifrli əlyazmalardan birincisində 118 miniatür, ikincisində isə 100-dən artıq müxtəlif quş, heyvan və insan təsvirləri verilib. Onu da qeyd edək ki, «Kəlilə və Dimnə»nin M-145 şifrli nüsxəsi dastanın Azərbaycan-türk dilinə ilk tərcüməsi olub, XIX yüzilin əvvəllərində mütərcim Əvəzəli ibn Səfiqulu tərəfindən çevrilmişdir. Əlyazma eyni zamanda Əvəzəli ibn Səfiqulunun avtoqrafıdır. «Rüstəmnamə» (D-236) əlyazmasının da 6$^{a}$ səhifəsində Rüstəm Zala aid tuşla çəkilmiş müniatür təsvir olunub. Ümumiyyətlə, kataloqda paleoqrafik təsviri verilmiş folklor əsərlərinin mətni tədqiq və nəşr olunmaq etibarı ilə əhəmiyyət kəsb etdiyi kimi, onların hər birinin sənətşünaslıq cəhətdən də araşdırılıb qiymət verilməsi olduqcu zəruridir.

**Əli Məmmədbağıroğlu,**
*filologiya elmləri namizədi*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# DASTANLAR



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**1. D-674/7324** Həcmi: 16 vərəq
Ölçüsü: 23 x 34 sm.
Mətn ölçüsü: 19 x 27 sm.
Cildi: yoxdur
Kağızı:dəftərxana kağızı
(bank blanklarının arxa tərəfində yazılıb).
Xətti: nəstəliq – şikəstə
Sətir sayı: 15-17
Tarixi: 1911

## K O R O Ğ L U

Məşhur «Koroğlu» dastanının qəhrəmanı ilə bağlı el arasında gəzən zərbi-məsəllər, müdrik ifadələr və Koroğlunun atasının gözünün çıxarılması haqqında olan rəvayətlərin bir variantından ibarətdir.

Mətnin köçürüldüyü kağız Bakı kredit cəmiyyətinin blankları olub, burada müxtəlif şəxslərə aid maliyyə əməliyyatları qeyd edilmişdir ki, bunun da müəyyən dərəcədə tarixi əhəmiyyəti vardır. Mətn qara mürəkkəblə, nəstəliq-şikəstə xəttilə köçürülmüşdür.

Başlanır (1[a]): آیل ادبیاتمزن برپایی ده داستانلرمزدن عبارتدر.

Bitir (16[a]): بر ایشن آخرینی کورم مش کولمکه باشلاماین.

**2. B-206/1824** Həcmi: 260 vərəq
Ölçüsü: 16,5 x 20 sm.
Mətn ölçüsü: 12 x 17 sm.
Cildi: qara rəngli karton
Kağızı: adi, ağ, saya
Xətti: nəstəliq –şikəstə
Sətir sayı: 11-12
Tarixi: 1936-ci ilin axırı, 1937-ci ilin əvvəli

## KİTABİ – KOROĞLU

«Koroğlu» dastanının özbək (cığatay) variantıdır. Rusiya EA-nın Sankt-Peterburq Şərşünaslıq institutunda saxlanılan nüsxədən Mirzə Xəlil Yüzbaşıyev Qarabaği tərəfindən 1936-37-ci illərdə köçürülmüşdür.

Əlyazmanın yazılma tarixi 1291 (1874-75)-ci il olduğu sondakı kolofonda göstərilmişdir. Əlyazmanın başlanğıcında Qərib təxəllüslü şairin bir qəzəli (1a-1b), iki təxmisi (1b-3b) köçürülmüşdür.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mətn bənövşəyi mürəkkəblə adi, ağ, saya kağıza yazılmışdır.

Başlanır ($3^b$): اریسون داغلارن قاری
انجلمه کوکلوم صبر ایله

Bitir ($259^b$): درین خبر دل طلب کند
بند نظر با سف کند وک کاو بند نظر برکاف کند.

**3. D-381/10358** Həcmi: 53 vərəq
Ölçüsü: 22 x 31 sm.
Mətn ölçüsü: 18 x 27 sm.
Cildi: sonradan karton cildə tutulmuşdur
Kağızı:adi, ağ, saya
Xətti: nəsx
Sətir sayı: 16

## MƏŞHUR KOROĞLU HEKAYƏSİ

«Koroğlu» dastanının Osmanlı variantıdır. Mətn əlyazma vərəqlərinin «a» üzünə, 51-ci vərəqdə isə «b» üzünə yazılmışdır.

Mətn qara mürəkkəblə, adi, ağ, saya kağıza aydın nəsx xəttilə köçürülmüşdür. Katibi, tarixi və köçürüldüyü yeri qeyd olunmayıb.

Başlanır ($2^a$): راویان آخبار و ناقلان آثار و محمّد ثان روزکار...

Bitir ($53^a$): اونلاره وداع ایده رک چاملی بله
کلدیلر کاه شهرده کاه چاملی بلده صفا ایلدیلر.

**4. B-7264** Həcmi: $345^a$-$382^b$
Ölçüsü: 17 x 21,5 sm.
Mətn ölçüsü: 15 x 19 sm.
Cildi: sonradan çəkilmiş üzlük
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: h. 1284 / m. 1867

## HEKAYƏTİ-KƏRƏM

Azərbaycan xalq dastanı «Əsli və Kərəm»in ilk dəfə təsadüf olunan yeganə əlyazmasıdır.

Dastanın bu nüsxəsi birinci dəfə 1266(1849-50)-ci ildə çap olunmuş İstanbul variantı ilə uyğun gəlsə də, bir sıra səciyyəvi xüsusiyyətləri, Harun ər-Rəşid adına istinad edilməsi, bir sıra söz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və ifadələrin ifadə tərzindəki fərqlər bu əlyazmasının ilk çap nüsxəsindən ən azı yüz il əvvəl yazılmış bir nüsxədən köçürülmüş olduğunu deməyə imkan verir.

Dastanın məzmun və ideyası dini ayrılıqların insanlar arasında təfriqə salmasını, bir-birini dəlicəsinə sevən iki gəncin həyatını faciə içərisində məhv etməsini göstərməkdən ibarətdir. Köçürüldüyü tarix: 4 iyun, 1867-ci ildir. Katibi Hüseyn əfəndi Qayıbovun olduğu yəqin edilir.

Başlanır (345[a]): راویان اخبار و ناقلان آثار و محمّد ثان روزکار.

Bitir (382[a]): اعملاسندا مرادلریمزه نایل ایلیه آمین

**5. A-603/1049**
Həcmi: 106 vərəq
Ölçüsü:12 x 18 sm.
Mətn ölçüsü: 10 x 16 sm.
Cildi: karton
Kağızı: ağ, sadə və saya
Xətti: nəstəliq
Sətir sayı: 16 - 26
Tarixi: h.1334/m. 1917

## QƏŞƏM XAN VƏ GÜLÜSTAN XANIM

Gəncə xanları Ziyadxanlıların son varislərindən Qəşəm xanla öz sevgilisi Gülüstan xanım arasında olan məhəbbətdən bəhs olunur. Avtoqrafdır.

106[b] vərəqində müəllifin, bu kitabı oxuyub bilməsi üçün Yelezavetopol komissarı İsmayıl xan Ziyadxanova xahişnamə qeydi vardır.

Dastanın mətni əsasən nəzmlə yazılmış, arabir nəsr hissələri də vardır. Abidə qara mürəkkəblə bir sütunda köçürülmüşdür.

Başlanır (1[b]): الف آلله کوندردی آینه قرآننی
بی بیان آیتدی خلقه حکمت دیواننی

Bitir (106[a]): کلوب قره باغده حاکمین یانینده قولّوق ایتمکه مشغول اولدی
اوز فکرینده دولانردی. هچ کس بیلمزدیکی کمدی.

**6. B-2656/4281**
Həcmi: 129 vərəq (+2)
Ölçüsü: 13 x 22 sm.
Mətn ölçüsü: 11 x 20 sm.
Cildi: medalyonlu dəri
Kağızı: boz rəngli saya kağız



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xətti: nəstəliq
Sətir sayı: müxtəlif
Tarixi: XVIII əsr

## ŞƏHRİYAR VƏ SƏNUBƏR

Şəhriyar və Sənubər adlı iki gəncin eşq macərasından bəhs edən aşiqanə dastandır.

Boz rəngli saya kağıza (10-12-ci vərəqlər göy rəngdədir) qara mürəkkəblə köçürülmüşdür. Mətn nəsr və nəzmlə olub, üzərinə medalyonlu dəri cild çəkilib. Sondan naqisdir.

Başlanır ($2^b$): راويان اخبار و حمد ثان خوش گفتار...

Bitir ($131^b$): صحرالرده كدوب رياضد چكوب استراحت گورميوب

**7. B-2277/3902** Həcmi: 36 vərəq
Ölçüsü: 17,5 x 21,5 sm.
Mətn ölçüsü: 14 x 16 sm.
Cildi: yoxdur
Kağızı: Şərq istehsalı
Xətti: nəstəliq – şikəstə
Sətir sayı: müxtəlif
Tarixi: h.1281 / m. 1864

## SEYFƏLMÜLUK DASTANI
## (ŞAHZADƏ)

Bu abidə ərəb mənşəli dastandır. Misir şahzadəsi Seyfəlmüluk ilə İrəm padşahı Şahbal pərinin qızı Bədiülcəmalın məhəbbət macərasından bəhs edir. Mifik əfsanəvi məzmundadır. Mövzu ərəb həyatından götürülsə də, coğrafi mühit Qafqaz, Azərbaycan ərazisi ilə də bağlıdır. Bu nüsxə Əlyazmalar İnstitutu xəzinəsində saxlanılan 10-qədər eyni adlı dastanın Azərbaycan milli dastanı formasına düşmüş yeganə nüsxəsidir. Nəsrlə yazılan mətn 60-a qədər qoşma ilə müşaiyət olunur. Əlyazma özü cildsiz olub, bəzi vərəqlərin kənarı qopmuş, sonradan açıq mavi rəngli karton cildə tutulmuşdur.

$1^a$ vərəqində Füzulinin 4 beytlik qəzəli və fars dilində 2 beyt şeri, həm də 7 sətirlik ərəb dilində dini məzmunlu mətn verilib. $35^a$ vərəqində mətnin kolofonu ətrafında «Koroğlu»dan 3 bəndlik qoşma var. Həmin vərəqdə «İslam Hacı Həsən oğlu» sözləri qeyd olunub.

$35^b$ vərəqində ərəb dilində bir neçə dini məzmunlu qeydlər edi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

lib. Yenə həmin vərəqdə «Əlcai» yazılmış dairəvi möhür vurulub.
Katib Rizvan Əliki tərəfindən 1281/1864-cü il məhərrəm ayında, düşənbə günü köçürülmüşdür.

Başlanır (1[b]): زمان اولنک راویلری بیله روایت ایدرلرکه
مصر شهرنده صفوان اوغلو پادشاه عادل ایدی.

Bitir (35[a]): جمله بو قضیّه لره معطل و تعجب قالدی لر.

**8. 3266/4891** Həcmi: 106 vərəq
Ölçüsü: 17 x 22 sm.
Mətn ölçüsü: 14 x 17 sm.
Cildi: yoxdur
Kağızı:ağ-bozumtul Şərq kağızı
Xətti: nəstəliq
Sətir sayı: 18
Tarixi: h. 1240/m.1824-25

**YENƏ**
**(«SEYFƏLMÜLUK» DASTANI)**

Bu əlyazma «Seyfəlmüluk» dastanının Məhəmmədxan bəy Hacı bəy oğlu Səlyaninin sifarişilə fars dilindən Azərbaycan türkcəsinə Qubada tərcümə edilmiş nüsxəsidir. Dastanın əsas nüsxəsindən fərqli olaraq burada hadisə Misir padşahı Asim şahla deyil, Qəzəvan xan oğlu Şahsəncər adı ilə başlanır.
1[b] vərəqinin sağ tərəfində «Əbduhu» sözü ilə başlanan dördüncü möhür var. Sonu naqisdir.

Başlanır (1[b]): حمدی بن انتها و شکر بقیاس اول حواس انسا نی نک نقش و بتدی
معارف اساسلو اولان خاطرلرنک زیب بخش ایچون روا و لایقدر.

Bitir (106[b]): بعد الجمالنک استقبالنه چقدیلر.

**9. A-935/1382** Həcmi: 83 vərəq
Ölçüsü: 11 x 18 sm.
Mətn ölçüsü: 9,5 x 14 sm.
Cildi: yoxdur
Kağızı: saya, Rusiya istehsalı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 11
Tarixi: h. 1299/m.1881-82

**YENƏ**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**(«SEYFƏLMÜLUK» DASTANI)**

Bu əlyazma «Seyfəlmüluk» dastanının nəsrlə köçürülmüş bir nüsxəsidir. Dastan sondan naqisdir.

Başlanır ($5^a$): اما راویان اخبار و ناقیلان اثار
طوطیان شکر شرین کفتار و بلبلان داستان.

Bitir ($83^b$): دیدی ای دلبر بندنه رحم ایله که
اون اوچ الدربلالر چکمشم.

**10. B-3787/5412** Həcmi: 19 vərəq
Ölçüsü: 17 x 21 sm.
Mətn ölçüsü: 12 x 16 sm.
Cildi: yoxdur
Kağızı: filiqranlı Rusiya kağızı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: müxtəlif (20-27)
Tarixi: XIX əsr

**YENƏ**
**(«SEYFƏLMÜLUK» DASTANI)**

Fars dilində nəzmlə yazılmış dastanın Mirzə Əli Axtılı Pirbudaqi tərəfindən nəsrlə türk dilinə tərcüməsidir. Mütərcim tərəfindən dastanda obrazlar və hadisələrə uyğun olaraq rübailər əlavə edilmişdir.

$19^b$ vərəqində «Molla Nəsrullah bin Pirbudaqi» sözləri yazılıb.

$18^{ab}$ və $19^a$ səhifələri boş buraxılıb. Əlyazmanı mütərcim Axtı kəndində köçürmüşdür.

Başlanır ($1^a$): حمد و ثنا اوخالقی بچونه که یدی
قدرتیله اون سکز من...

Bitir ($17^b$): بونو عیله قصرآبادان اولدی که
هچ زمانده اولمش دکولدی.

**11. B-5344/6969** Həcmi: $23^b$-$36^a$
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 10 x 15 sm.
Cildi: karton
Kağızı: saya, Şərq istehsalı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 13



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tarixi: h. 1289/ m. 1872-73

**YENƏ**
**(«SEYFƏLMÜLÜK» DASTANI)**

Dastan nəzmlə yazılıb, müəllif göstərilməyib. Hidayət adlı katib tərəfindən köçürülmüşdür. Əlyazmanın daxil olduğu məcmuə sonradan karton cildə tutulmuşdur.

Başlanır (23[b]): الحمدالله الزى جعلنا الضلمات الى النور

Bitir (36[b]): نجه ويردونک بولارنک سن مرادينى

**12. B-2457/4082 (VI)**

Həcmi: 161[b] -176[a]
Ölçüsü: 17 x 21 sm.
Mətn ölçüsü: 10 x 16 sm.
Cildi: yoxdur
Kağızı: ağ, saya, Rusiya istehsalı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 12
Tarixi: h. 1284/m.1867

**YENƏ**
**(«SEYFƏLMÜLÜK» DASTANI)**

Məşhur dastan Misir şahzadəsi Seyfəlmülukla Pərilər padşahı Şahbalın qızı Bədiülcəmalın eşq macərasını təsvir edir.

Mətn qara mürəkkəblə ağ, saya, Rusiya istehsalı olan kağıza nəstəliq-şikəstə xəttilə məsnəvi şəklində, iki sütunda köçürülmüşdür. Müəllifi və katibi məlum deyil. Mətnin haşiyəsində maili şəkildə abidənin xəttindən seçilən xətlə yazı köçürülmüşdür. Mətnin bəzi hissələri şeirlərdən ibarətdir.

Başlanır (161[b]): الحمد الاّ الزّى جعلنان الظلمات الى النّور
واصلّوة و اسّلام على محمّد□ المشهور

Bitir (176[a]): خداى هر جوانک وير مرادين
نجه ويردون بولارنک سن مرادين.

**13. M-69/4318 (XXVI)**

Həcmi: 96[a]-107[a]
Ölçüsü: 17 x 22,5 sm.
Mətn ölçüsü: 11 x 15 sm.
Cildi: karton
Kağızı: ağ, saya, Rusiya istehsalı
Xətti: nəstəliq-şikəstə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sətir sayı: 11
Tarixi: h. 1333/m.1915

**YENƏ**
**(«KİTABİ-SEYFƏLMÜLUK»)**

Abidə qara mürəkkəblə, iki sütunda, məsnəvi şəklində, ağ, saya, Rusiya istehsalı olan kağıza nəstəliq-şikəstə xəttilə köçürülmüşdür.

Katibi və müəllifi məlum deyil. Əlyazmanın köçürülmə tarixi olmasa da, məcmuədəki digər mətnlərin sonundakı tarixə əsasən, 1333/1914-15-ci il ($148^a$) tarixində köçürüldüyünü demək olar.

Başlanır ($96^a$): حکایت ایلرم بر تازه دستان
معطربوی ایدی چونکه گلستان

Bitir ($107^a$): خدایا هر جوانون ویر مرادینی
نجه ویردون بولارون سن مرادینی.

**14. B-5101/6726** Həcmi: $1^a$-$31^a$
Ölçüsü: 17 x 20 sm.
Mətn ölçüsü: 15 x 18 sm.
Cildi: yoxdur
Kağızı: damalı şagird dəftəri
Xətti: nəstəliq
Sətir sayı: 19
Tarixi: 12 noyabr 1956.

**YENƏ**
**(«SEYFƏLMÜLUK» DASTANI)**

Bu dastan abidəsinin sonunda heç bir katib qeydi yoxdur. Lakin əlyazmaya daxil edilmiş ikinci mətnin – «Tutinamə»nin sonunda belə bir katib yazısı var: «Fars dilindən çevirəni İmadəddin Haqverdiyev».

Başlanır ($1^a$): اما راویان اخبار ناقیلان اثار و طوطیان شکر شکن شرین گفتار...

Bitir ($31^a$): سیف الملوکه الله بر اوغلان عطا ایلدی

**15. B – 777/ 2396** Həcmi: $36^b$ – $39^a$
Ölçüsü: 17,5x22 sm.
Mətn ölçüsü: 10,5x16 sm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cildi: yoxdur.
Kağızı: filiqranlı, Avropa istehsalı.
Xətti: nəstəliq
Sətir sayı: 14
Tarixi: h. 1208/m. 1793-94

**YENƏ**
**(«SEYFƏLMÜLUK» DASTANI)**

Bu əlyazma da «Seyfəlmüluk» dastanının nəzmlə tərcümə olunmuş yarımçıq nüsxəsidir. Məcmuədəki başqa mətnlərin sonunda kösürülmə tarixi (h.1208/ m.1793-94) olsa da, abidənin köçürülmə tarixi qeyd olunmayıb.

Başlanır (36 b): حکایت ایلرم بر داستان.
معطربوی چون گلستان.

Bitir (39 a): تمام عیان یقدی کنه برده
قلا بلمدیلر درمان بو درده.

**16. B-1707/3332** Həcmi: 1b-13b
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 10 x 15 sm.
Cildi: üzərinə göy rəngli parça çəkilmiş karton
Kağızı: ağ, saya, Şərq istehsalı
Xətti: nəstəliq – şikəstə
Sətir sayı: 13
Tarixi: h. 1277/m. 1860-61.

**YENƏ**
**(«SEYFƏLMÜLUK» DASTANI)**

Bu əlyazma «Seyfəlmüluk» dastanının mənzum bir nüsxəsidir. Əlyazmanı Məhəmməd vələdi Abdulla Həmzəli köçürmüşdür.

Başlanır (1b): حکایت ایلرم بر تازه دستان
معطر بوی چن بوی کلستان.
Bitir (13b): خدایا هر جوانک ویر مرادین
نچه ویردنک بولارنک سن مرادین.

**17. B- 1506/3131** Həcmi: 180 vərəq
Ölçüsü: 14,5 x 24 sm.
Mətn ölçüsü: 8,5 x 13,5 sm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cildi: yoxdur
Kağızı: filiqranlı Avrora kağızı
Xətti: nəstəliq
Sətir sayı: 12
Tarixi: h.1107/m.1695

### QƏHRƏMANNAMƏ

Qədim Azərbaycan və İran-Turan əfsanələri ilə bağlı tarixi-mifoloji qəhrəmanlıq dastanıdır. 1a vərəqində müəllifi məlum olmayan bir qoşma yazılıb. 180 b vərəqində isə əhəmiyyətsiz bir sıra qeydlər var. Əlyazmanın katibi Molla Kəlbi Ələddin İrəvanidir. Katib haqqında sonda yazılıb: «Əl əsli Bayat əl-Miski». Abidə əvvəldən naqisdir. 180a səhifəsinin aşağıdan sol kənarında yalnız «Əbduhu» oxunan dördkünc möhür var.

Başlanır ($1^a$): یارن قهرمان سوزه کلوب ایدر

Bitir ($180^b$): عزتنک حقچون ای رب الانام
آخریمز خیر ایله سن بالتمام.

**18. B-7451/11113** Həcmi: 217
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 11 x 15,5 sm.
Cildi: qəhvəyi rəngli medalyonlu dəri
Kağızı: XIX əsr Rusya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 12
Tarixi: XIX əsr.

### YENƏ
### («QƏHRƏMANNAMƏ» DASTANI)

Əlyazma qədim Azərbaycan və İran-Turan əfsanələri əsasında yaradılmış tarixi – mifoloji qəhrəmanlıq dastanı olan «Qəhrəmannamə» dastanının ikinci dəyərli nüsxəsidir. Başlanğıcda dastanın Adəm əleyhəssəlamın, Şit peyğəmbərin və əfsanəvi İran padşahı Kəyumərsin adı ilə bağlanması bu nüsxəni fərqləndirir. Lakin təəssüf ki, ikinci vərəqdən on doqquzuncu vərəqədək nüsxə naqisdir.

Mətnin sonunda (217a) sonradan başqa xətlə «Müəllifül-Əbdülhüseyn ibn Hacı Kərim əleyhül-rəhmə. Sənə hicri 801» qeydi, $1^b$ səhifəsində isə «sənə 885» tarixi yazılmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Başlanır (1[b]): آدم علیه السلام زماننده کیومرث
حکیم سلطنت کوستروب شیت...

Bitir (217[a]): اما بو طرفدن اهلی حرم هوشنک انتظار
چکرلر ایدیکه کورک شاه دن نه خبر گلور.

**19. B- 4901/6526** Həcmi: 47 [a] - 124 [a]
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 12 x 16,5 sm.
Cildi: medalyonlu və kənarı naxışlı dəri
Kağızı: XIX əsr Rusya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 16
Tarixi: h. 1295 / m. 1878

**YENƏ**
**(«QƏHRƏMANNAMƏ» DASTANI)**

Qədim Azərbaycan və İran-Turan əfsanələri əsasında yaradılmış tarixi – mifoloji qəhrəmanlıq dastanıdır. Bu əlyazma kitabının 1b-46b vərəqlərinə «Bəxtiyarnamə» dastanı köçürülüb. 125b-132b vərəqlərində isə imam Əlinin şücaəti haqqında hədis-rəvayət köçürülmüşdür.

Əlyazmanın katibi Nəsib əfəndi ibn Əlidir. Dastan hansısa yarımçıq bir nüsxədən köçürülüb.

Başlanır (47[a]): قهرمان که قاف داغنون دیولری
آپاروب ساخلادیلر
Bitir (124[a]): پهلوانلق ایدوبدر دنیاده دیله
و بیانه راست گلمز والله اعلم بالصّواب.

**20. B-3237/4862** Həcmi: 50 vərəq
Ölçüsü: 20 x 24 sm.
Mətn ölçüsü: 18 x 21 sm.
Cildi: meşin
Kağızı: təkxətli ümumi dəftər
Xətti: nəstəliq
Sətir sayı: 27
Tarixi: 24 dekabr 1958

**YENƏ**
**(«QƏHRƏMANNAMƏ» DASTANI)**

Qədim Azərbaycan və İran-Turan əfsanələri ilə bağlı tarixi-mi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

foloji qəhrəmanlıq dastanıdır. Dastan farsca çap nəşrindən İmaməddin İskəndərzadə–Haqverdiyev tərəfindən tərcümə edilmişdir.

Başlanır (2[b]): ...امّا راويان اخبار ناقلان بيله روايت ايديرلر

Bitir (50[a]): سروخرامان قهرمان ايله خوش
كذه ران كچرديلر.

**21. B-5697/7322** Həcmi: 1[a] – 81[b]
Ölçüsü: 17 x 22 sm.
Mətn ölçüsü: 16 x 17 sm.
Cildi: karton
Kağızı: təkxətli ümumi dəftər
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: XIX əsrin 30-cu illəri

## YENƏ
## («QƏHRƏMANNAMƏ» DASTANI)

Bu əlyazma qədim Azərbaycan və İran-Turan əfsanələri əsasında yaradılmış tarixi – mifoloji dastandır. Əlyazmanın katibi Əli Heydər Nuxəvidir. O, əlyazmanı Məşədi Məhəmmədbağır adlı şəxsin sifarişi ilə köçürmüşdür. Cildin ilk və son üzünün içəri tərəfində katib qeydləri vardır. Əlyazmanıın frontospisi quş və başqa ornamentlərlə bəzədilmişdir.

Başlanır (1[b]): راويان اخبار و ناقلان اثار بويله
روايت ايليوبديلر...

Bitir (81[a]): اوز مرادلرينه يتشديلر عيش عشرت ايله
كچورديلر تا اجلى مرغودى تاپديلر.

**22. B-4901/6526** Həcmi: 1[b]-46[b]
Ölçüsü: 17,5 x 22 sm.
Mətn ölçüsü: 12 x 17 sm.
Cildi: dəri (medalyonlu)
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq – şikəstə
Sətir sayı: 14-15
Tarixi: h. 1293/m. 1876

## BƏXTİYARNAMƏ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu abidə Şərq aləmində geniş yayılmış «Bəxtiyarnamə» dastanının Azərbaycanda köçürülmüş (türk dilində) bir nümunəsidir. Dastanda Bəxtiyarın dünyaya gəlməsi, həramilər tərəfindən tapılması, sonra saray həyatı, sarayda başına gələn əhvalatlar və ölümdən xilas olması üçün hər gecə bir nağıl danışmasından, nəhayət, onun xilas olmasından bəhs olunur.

Əlyazma qara mürəkkəblə, nəsr-nəzm şəklində nəstəliq-şikəstə xətti ilə katib Nəsib ibn Əli tərəfindən h. 1293 (m.1876)-cü ildə köçürülmüşdür.

Başlanır ($1^b$): اما راویان اخبار و ناقلان آثار...

Bitir ($46^b$): بونی یازدوم یادکار اولماق اوچون
اوخویانلر بردعا قلمق اوچون

**23. M-12/10545** Həcmi: $39^b$-$79^a$
Ölçüsü: 13,5 x 18,5 sm.
Mətn ölçüsü: 10 x 15 sm.
Cildi: dəri (çat-çat olmuşdur)
Kağızı: ağ, sadə və saya, İtaliya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 15-17
Tarixi: h. 1088/ m. 1677

## YENƏ
## (BƏXTİYARNAMƏ)

Abidənin mətni qara mürəkkəblə, başlıqlar isə qırmızı mürəkkəblə nəstəliq xəttilə, iki sütunda, nəzmlə yazılmışdır. Abidə fars dilindədir. Mətnin sonunda köçürülmə tarixi olmasa da, birinci mətnin sonundakı tarixi (1088-ci il) əsas götürmək olar. Əlyazma kitabının kağızındakı filiqranlar da abidənin XVII əsrdə Avropada, çox güman ki, İtaliyada istehsal olunmuş kağıza köçürüldüyünü göstərir. Filiqranlar dairələr üzərində xaç nişanlı tac təsvirindən ibarətdir. Burada eyni zamanda foolşapı (təlxək, Hollandiya) xatırladan filiqran da var.

Başlanır ($39^b$): اول در کار دوست پشه کردن
دویم ارکارحا اندیشه کردن

Bitir ($79^a$): پاک خود مکن خود را بدوست خود هلاک

**24. B-5703/7328** Həcmi: $7^b$-$70^a$



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ölçüsü: 12,5 x 19,5 sm.
Mətn ölçüsü: 18 x 13 sm.
Cildi: medalyon təsvirli dəri
Kağızı: nazik, ağ, saya
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: h. 1308 / m.1881

**LEYLİ VƏ MƏCNUN**

Seyidi-bəni-Əmirin çox intizardan sonra oğlu olur. Adını Qeys qoyur. Qeys qonşu qəbilə başçısının qızı Leyliyə aşiq olur. Sonra İbn Salam, Zeyd, ata-analar və məlum poemalardakı obrazlar haqqında burada nəql olunur. Nəsrlə yazılmış mətndə arabir qəzəl, məsnəvi şəklində şerlər də verilmişdir. Sonda Zeydin qayibdən xəbər verdiyinə görə aşiq-məşuq o biri dünyada bir-birinə qovuşurlar.

Dastan yarı Azərbaycan-türk və yarı cığatayca nəql olunur.

Abidənin mətni qara, başlıqlar və seçdirmələr qırmızı mürəkkəblə, nəsr-nəzm şəklində h.1308/m.1881-ci ildə nəstəliq xətti ilə katib Molla Arif bin Molla Məruf tərəfindən köçürülüb. Abidənin mətnindən əvvəl 7 vərəq boş buraxılmışdır. $2^a$ səhifəsində əlyazma kitabına köçürülmüş əsərlərin siyahısı verilmişdir (4 əsər).

Başlanır ($7^b$): اما راویان اخبار و ناقلان اثار و بند اونی

Bitir ($70^a$): بول واقعه لرنی زید باطن دین
کوروب خلایقغه بیان قیلدیلار.

**25. B-5703/7328 (III)** Həcmi: $71^a$-$152^b$
Ölçüsü: 12,5x 19,5 sm.
Mətn ölçüsü: 8 x 13 sm.
Cildi: medalyon təsvirli dəri
Kağızı: nazik, ağ, saya
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: h.1309/ m.1882

**ZİVƏR XAN**

Bağdad padşahı Xosrov xaqanın oğlu Zivər xanın Bağdad və İstanbul nahiyələrində bütpərəstlərə qarşı qəhrəmanlıq müharibələrindən və axırda İrəm padşahının qızı Dilsuz xanım ilə evlənməsindən bəhs olunur.

Abidənin mətni qara, başlıqlar və seçdirmələr qırmızı mürəkkəblə nəsr-nəzm şəklində h.1309/m.1882-ci ildə nəstəliq xəttilə katib Molla Arif bin Molla Məruf tərəfindən köçürülüb.

Başlanır ($71^b$): اما راویلاراندان روایت قیلورلار



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

کم بغداد شهرنده بر خسروخان...

Bitir (152[b]): القصه اندین قرق کیجه کوندوز توی
و تماشا قیلیب عاشق لار مرادلاینه یتی لار.

**26. A-121/564**

Həcmi: 88 vərəq
Ölçüsü: 18 x 11 sm.
Mətn ölçüsü: 8,5 x 15 sm.
Cildi: karton
Kağızı: müasir, tək mil (solğun)
Xətti: nəstəliq
Sətir sayı: 15-21
Tarixi: h. 1331/m.1912

**DASTANİ - HATƏMİ -TAYİ**

Abidə solğun, tək mil, ağ kağıza nəstəliq xəttilə, 1331 hicri tarixində katib Məhəmməd İbrahim vələdi Kərbəlayı Nəsir Həmədani tərəfindən köçürülmüşdür.

Əlyazma abidəsi Şərqdə məşhur, səxavət nümunəsi kimi tanınmış Hatəm haqqında və onun səxavətilə bağlı bir çox hekayələrdən ibarətdir.

Başlanır (1[b]): ای دل ینه زین اولدی جهان پیره
زنی کور،

Bitir (88[b]): عمرلرینی صفا ایله کچوردیلر و حاتم
طائینین حکایتی بو یرده بیتدی.

**27. B-1676/3301**

Həcmi: 19 vərəq
Ölçüsü: 15 x 21 sm.
Mətn ölçüsü: 10 x 15 sm.
Cildi: yoxdur
Kağızı: saya, boz rəngli
Xətti: nəstəliq
Sətir sayı: 14

**MEHRÜ MAH**

Azərbaycan-türk dilində aşiqanə dastandır. Qara mürəkkəblə boz rəngli kağıza köçürülmüşdür.

Əvvəldən və sondan naqisdir.

Başlanır (1[a]): اولوزر آغ قزیل جواهرات وار بی حدّ بی حساب.

Bitir (19[a]): پادشاه کوردی برایکید باشدان آیاغه
لعل وجواهره متغرق اولموش پادشاه دیدی ای جوان



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**28. B-1591/3216**

Həcmi: 159 vərəq
Ölçüsü: 16 x 21 sm.
Mətn ölçüsü: 11 x 17 sm.
Cildi: sonradan çəkilmə
Kağızı: saya, Rusiya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 14-17
Tarixi: h.1316/ m.1898

**XAVƏRNAMƏ**

Həzrət Əlinin, islam dini qəhrəmanlarından Malik Əjdər, Sədvəqqas və başqalarının iştirak etdiyi müharibələrdən bəhs edən məşhur dastanın mənzum variantıdır.

Katibi Vəliyulla Molla Əhməd Qazağidir. Müəllifi məlum deyil.

Başlanır (1[b]):

دونبله بر اخبار باغ شاخار
بلبل کویند بو مرغزار.

Bitir (159[a]):

تمام اولدی ختمنک انتهاسی
کرکدر کاتبه خلعت بهاسی

**29. B-6117**

Həcmi: 135 vərəq
Ölçüsü: 21,5 x 16,5 sm.
Mətn ölçüsü: 17,5 x 12 sm.
Cildi: qopmuş dəri cild
Kağızı: saya, pardaqlanmış, Şərq istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 16
Tarixi: h.1174/ m.1760

**YENƏ**
**(«XAVƏRNAMƏ»)**

Həzrət Əlinin, islam dini qəhrəmanlarından Malik Əjdər, Sədvəqqas və başqalarının iştirak etdiyi müharibələrdən bəhs edir. Bu əlyazma «Xavərnamə»nin o biri nüsxələrindən fərqli olaraq mükəmməl nüsxəsidir. Əvvəli naqisdir.

Başlanır (1[a]):

ای یارنلر بر قبح کوترركه...

Bitir (134[a]):

خاورنامه واخضوزمین حکایه سی
بوراده تمام اولدی اوقویانی دنکلیانی یازنی رحمتوله...



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**30. S-22/8976** Həcmi: 1ª-96ª
Ölçüsü: 17,5 x 22 sm.
Mətn ölçüsü: 12 x 19 sm.
Cildi: karton
Kağızı: ağ, sadə, Rusiya ist.
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 15
Tarixi: h.1312/ m.1894

**YENƏ**
**(«XAVƏRNAMƏ»)**

Əlyazma dini məzmunlu nəzmlə yazılmış dastandır. Burada Həzrət Əlinin islam dini uğrunda apardığı müharibələrdən danışılır. Dastanda Həzrət Əlidən başqa Sədvəqqas, Malik Əjdər və digərlərinin qəhrəmanlığından bəhs edilir. Qəhrəmanlara Məhəmməd peyğəmbərin özü röyada yol göstərir.

Abidənin mətni qara mürəkkəblə iki sütunda nəstəliq-şikəstə xətti ilə köçürülmüşdür. Sonda kitabın sahibi və köçürülmə tarixi qeyd olunub. Abidə 1312-ci ilin səfər ayında köçürülüb, kitabın sahibi Əbdüləzizdir.

Başlanır (1ᵇ): سعدی ابو المعجنم اوچون اول نکار
خوش مصلح لر کتوردی آشکار

Bitir (96ª): بو کتابن صاحبی عبدالعزیز
ای الهی ایله کل انی دین دیانتده عزیز

**31. D- 212/3084** Həcmi: 202 vərəq
Ölçüsü: 21 x 34 sm.
Mətn ölçüsü: 14 x 25 sm.
Cildi: üzərinə parça çəkilmiş karton
Kağızı: ağ, sadə, Şərq istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 19

**RÜSTƏMNAMƏ**

«Şahnamə» dastanları əsasında yazılmış nəsr əsəridir. Abidə ağ, pardaqlanmış Şərq kağızına nəstəliq xəttilə köçürülmüşdür. Mətndə seçdirmələr qırmızı mürəkkəblə yazılmışdır. Abidənin mətni sondan naqisdir.

Başlanır (1ª): جمشید باطیل دعوانی ایله دی یوخودن
اویاندی رنکی روی تغیر تاتمشدی

Bitir (200ᵇ): کتوروب دخمیه کلدی و اونی عنبر ایله ...



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**32. D- 236/10213** Həcmi: 25 vərəq
Ölçüsü: 21 x 34 sm.
Mətn ölçüsü: 16 x 29 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 23

**YENƏ**
**(«RÜSTƏMNAMƏ»)**

Abidə ağ, sadə kağıza nəstəliq xəttilə köçürülmüşdür. Əlyazma kitabı bərbad vəziyyətdədir. Vərəqləri qopmuş, kənarları cırılmış və ləkəlidir. Mətn qara və bənövşəyi mürəkkəblə yazılmış, haşiyələrdə mətnə dair fars dilində müəyyən qeydlər edilmişdir. Seçdirmələr qırmızı mürəkkəblədir. $6^a$ səhifəsində Rüstəm Zala aid tuşla çəkilmiş miniatür var. Abidə sondan naqisdir.

Başlanır ($1^a$): کیقبادون ..... کتوردیلر دندان
قارون گلوب رستمون ایاقنه دوشدی

Bitir ($25^b$): خذنک مارکوش بابا رشد جفت
قضا هم خنده زد هم آفرین

**33. B - 6286/7911 (I)** Həcmi: $1^a$-$2^b$
Ölçüsü: 17,5 x 21,5 sm.
Mətn ölçüsü: 17 x 12,5 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: h.1289 / m.1872

**DASTANİ - DƏVƏ**

Bir dəvə sahibinin onu incitməsinə görə Məhəmməd peyğəmbərə (s.) gileylənir. Peyğəmbər dəvəni sahibindən alaraq azad edir. Dəvə də həmişə gəlib Məhəmməd peyğəmbərə baş çəkirmiş. Bir gün gələndə görür ki, peyğəmbər ölüb. Bunu görən dəvə də başını divara vurub özünü öldürür.

Hekayətin mətni iki sütunda, nəzmlə, qara mürəkkəblə və hərəkəli nəstəliq xəttilə yazılmışdır.

Başlanır ($1^a$): چون شکایت قلدی ایستدن دوه



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

مصطفادن اولدی دردینه دوا.

Bitir: (2 b)   گردیلر سیز بوله سیز اودرنجات
عشقله دردیله ایدونک الصلاة

**34. B- 6286/7911 (III)**   Həcmi: $4^a$-$5^b$
Ölçüsü: 17,5 x 21,5 sm.
Mətn ölçüsü: 12,5 x 17 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq
Sətir sayı: 13
Tarixi: h.1289 / m.1871

## GÖYƏRÇİN DASTANI

Bu mənzum hekayədə Allah mələkləri peyğəmbərin yanına birini göyərçin, o birini isə ovçu şəklində göndərir. Ovçu göyərçini tutmaq istəyir, peyğəmbər deyir ki, göyərçinin ağırlığı qədər budumdan ət kəsib götür. Lakin ovçu razılaşmır və hər ikisi dönüb yenidən mələk olur.

Başlanır (4 a):   ایشت امدی بر عجایب خوش خبر
کیم نه دیمش راویان معتبر

Bitir: (5 b)   فاعلاة فاعلاة فاعلاة
ویر محمّد مصطفی یه صلواة.

**35. S- 22/8976 (II)**   Həcmi: $96^b$- $97^a$
Ölçüsü: 17,5 x 22 sm.
Mətn ölçüsü: 11 x 17 sm.
Cildi: karton
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 15
Tarixi: h.1312 / m.1894

## YENƏ
## (GÖYƏRÇİN DASTANI)

Mətn qara mürəkkəblə nəstəliq-şikəstə xəttilə köçürülmüşdür.

Başlanır ($96^b$):   ایشید ایمدی بر عجایت خوش خبر
که نه دیمش روایان معتبر.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bitir: (97[a]) فاعلات فاعلات فاعلات
ویر محمّد مصطفییه صلوات.

**36. B - 4803/31067**

Həcmi: 3[b]- 5[a]
Ölçüsü: 17 x 22 sm.
Mətn ölçüsü: 14 x 17 sm.
Cildi: karton
Kağızı: ağ, sadə, Rusiya istehsalı
Xətti: nəstəliq-şikəstə
Sətir sayı: 11-12
Tarixi: h.1306 / m.1898

## YENƏ
## (GÖYƏRÇİN DASTANI)

Mətn iki sütunda, nəzmlə, qara mürəkkəblə səliqəsiz nəstəliq xəttilə köçürülmüşdür.

Başlanır (3[b]): سولیم بر قصّه کوش ایله کل
شربت جاندن انی نوش ایله کل

Bitir: (5[a]) سنه غه کلدوک سنکا یا مرتضی
یخشی کوردوک یخشی رق حبیب خدا.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# HEKAYƏTLƏR



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**37. A - 514/960**

Həcmi: $46^b$-$52^b$
Ölçüsü: 10,5 x 17 sm.
Mətn ölçüsü: 8 x 11 sm.
Cildi: sonradan çəkilmə
Kağızı: ağ, boz rəngli
Xətti: nəstəliq
Sətir sayı: 9
Tarixi: h.1244/m. 1828-29

**DÜZDÜ QAZI**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şərq ədəbiyyatında yayılmış yumoristik hekayədir. Bir qazının Quran və şəriəti kamil bilən bir cavan oğru ilə rastlaşması və qızını ərə verməsi əhvalatı nəql olunur.

Mətn qara mürəkkbələ ağ, sadə kağıza nəstəliq xəttilə 1244/ 1828-29-cu ildə köçürülmüşdür.

Başlanır ($46^b$) حارون رشیدّه زماننده بر قاضی وارایدی.

Bitir: ($52^b$) قاضی قیزین نکاح قلوب اوغریه تسلیم ایتدی.

**38. M- 315/960**

Həcmi: $164^b$-$168^b$
Ölçüsü: 17,5 x 22 sm.
Mətn ölçüsü: 10 x 15 sm.
Cildi: medalyonlu dəri, qapaqlı
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 11
Tarixi: h.1179/m. 1765-66

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə ağ, sadə kağıza nəstəliq xəttilə 1179/ 1765-66-cı ildə köçürülmüşdür.

Başlanır ($164^b$) حارون رشید زماننددا بر قاضی وارایدی

Bitir: ($168^b$) قیزی اوغربیه نکاح ایدوب جفت ایدی

**39. B - 2456/4081**

Həcmi: $1^a$-$10^b$
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 11 x 16 sm.
Cildi: sonradan çəkilmə
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 12

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə ağ, sadə kağıza nəstəliq xəttilə köçürülmüşdür.

Başlanır ($1^a$) اول ایامده حارون الرشید زماننده



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

بغداد قاضیلرندن برقاضی وارایدی

Bitir: ($10^b$) سنکا الله بلا ویرسون
کوزنک اکسون خجیل ایتسون.

**40. B - 1684/3309**

Həcmi: $1^a$-$5^a$
Ölçüsü: 18 x 22 sm.
Mətn ölçüsü: 11 x 16 sm.
Cildi: sonradan çəkilmə
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 12
Tarixi: h 1282/ m. 1865-66

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara, seçdirmələr isə qırmızı mürəkkəblə ağ, sadə kağıza nəstəliq xəttilə köçürülmüşdür.

Başlanır ($1^a$) هارون رشید زماننده بر قاضی وارایدی

Bitir: ($15^a$) قاضی قزینا نکاح ایدوب اغریه ویردی تاریخ ۱۲۸۲

**41. B - 5955/7580**

Həcmi: $1^b$-$24^a$
Ölçüsü: 14,5 x 22 sm.
Mətn ölçüsü: 9 x 16 sm.
Cildi: karton
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 16
Tarixi: h. 1263/m.1846-47

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Digər nüsxələrdən fərqli olaraq həcmi böyükdür. Abidənin fars dilindən tərcümə olması qeyd olunub. 1a səhifəsində belə qeyd yazılıb: «Tərcümə Düzdü Qazı, mütərcim və katib Məhəmməd Qasim Qudyali Azərbaycani».

Abidədə yarımçıq çəkilmiş miniatürlər var. Mətn arasında miniatürlər üçün boş yerlər buraxılmışdır.

Mətn qara mürəkkəblə ağ, sadə kağıza nəstəliq xəttilə, seçdirmələri isə qırmızı mürəkkəblə 1263/1846-47-ci ildə Salyanda kö-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çürülmüşdür.

Başlanır ($1^b$) الحمد الله ربّ العالمين وصلّ اله على خير حلقه محمّد واله...

Bitir: ($24^a$) روزگارده یادکار قالدی تمّت الکتاب

**42. B-7315/8940**

Həcmi: $1^a$-$3^a$
Ölçüsü: 17 x 22 sm.
Mətn ölçüsü: 13,5 x 18,5 sm.
Cildi: yoxdur
Kağızı: göy rəngli
Xətti: nəstəliq
Sətir sayı: 19

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə göy rəngli kağıza nəstəliq xəttilə köçürülmüşdür. Köçürülmə tarixi və katibi qeyd olunmamışdır.

Başlanır ($1^a$) هارون رشید زماننده بر قاضی وارایدی

Bitir: ($3^a$) قاضی قزین کابن قلوب اوغریه تسلیم ایتدی.

**43. B-2457/4082**

Həcmi: $106^b$-$111^b$
Ölçüsü: 16,5 x 21,5 sm.
Mətn ölçüsü: 11 x 15 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 10
Tarixi: h. 1284/m. 1867-68

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə ağ, sadə kağıza 1284/1867-68-ci ildə katib Hacı bin Əbdürrəhman tərəfindən köçürülmüşdür. $111^b$ səhifəsində bir neçə bayatı və yeni doğulan uşaq haqqında qeyd yazılmışdır.

Başlanır ($106^b$) هارون رشید زماننده بر قاضی وارایدی

Bitir: ($111^b$) قاضی قزون کابین قلوب اوغریه ویردی تسلیم ایتدی.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**44. B-6835/8461**

Həcmi: $120^b$-$124^a$
Ölçüsü: 16 x 21,5 sm.
Mətn ölçüsü: 11 x 17 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 15-17
Tarixi: h. 1246/m. 1830-31

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə ağ, sadə kağıza nəstəliq xəttilə 1246/ 1830-31-ci ildə köçürülmüşdür. Mətndəki bəzi sözlərin altından qırmızı xətt çəkilmişdir. Mətn başa çatandan sonra qırmızı mürəkkəblə «Hacı Məhəmməd əfəndi» qeydi yazılıb. Çox cüman ki, bu katibin adıdır.

Başlanır ($120^b$) هارون الرشید زماننده بر قاضی وارایدی.

Bitir: ($124^a$) قزنی اوغریه تسلیم ایتدی

**45. B-5188/6813**

Həcmi: $36^a$-$39^a$
Ölçüsü: 17 x 21,5 sm.
Mətn ölçüsü: 10,5 x 13,5 sm.
Cildi: yoxdur
Kağızı: ağ, sadə
Xətti: nəstəliq
Sətir sayı: 14
Tarixi: h. 1287/m. 1870-71

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə ağ, sadə kağıza 1287/1870-71-ci ildə köçürülmüşdür.

Başlanır ($36^a$) حارون رشید زماننده بر قاضی وارایدی.

Bitir: ($39^a$) قاضی قزینی کابین قلوب اوغریه تسلیم ایتدی.

**46. B-241/1859**

Həcmi: $4^a$-$7^b$
Ölçüsü: 16 x 21sm.
Mətn ölçüsü: 16 x 21 sm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cildi: üzərinə kağız çəkilmiş dəri
Kağızı: göy rəngli
Xətti: nəstəliq
Sətir sayı: 14
Tarixi: h. 1234/m. 1818-19

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə göy rəngli kağıza 1234/1818-19-cu ildə nəstəliq xəttilə köçürülmüşdür.

Başlanır ($4^a$) حارون رشید زماننده بر قاضی وارایدی

Bitir: ($7^b$) قاضی قزینی کابین قلوب اوغریه تسلیم ایتدی.

**47. B-5216/6841**

Həcmi: $1^b$-$5^b$
Ölçüsü: 17 x 20,5 sm.
Mətn ölçüsü: 12 x 16 sm.
Cildi: yoxdur
Kağızı: boz rəngli, ləkəli
Xətti: nəstəliq
Sətir sayı: 14

**YENƏ**
**(DÜZDÜ QAZI)**

Mətn qara mürəkkəblə boz rəngli (ləkəli) kağıza nəstəliq xəttilə köçürülmüşdür. Sonu naqisdir.
Başlanır ($1^b$) اما راویان اخبارو ناقلان آثار...

Bitir: ($5^b$) برده خاتونون برده تاوق اوچ اولورسنکز
برمن ایکی تاوق بیزده اوچ اولورق...

**48. B-1830/3455**

Həcmi: $77^b$-$80^b$
Ölçüsü: 17 x 21sm.
Mətn ölçüsü: 14 x 17 sm.
Cildi: yoxdur
Kağızı: göy rəngli
Xətti: nəstəliq
Sətir sayı: 17
Tarixi: h. 1255/m. 1839-40



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

